# Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi cinayət əməllərinə yol açır

***Azərbaycan Respublikasında narkomaniya və narkomanlığa qarşı mübarizə sahəsində qətiyyətli addımlar atılır. Bu sahədə həyata keçirilən işlər çərçivəsində zəruri qanunvericilik bazası yaradılmış, institusional islahatlar həyata keçirilmiş, Azərbaycan müvafiq beynəlxalq sənədlərə və təşəbbüslərə qoşulmuşdur.***

"Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan 26 avqust 1996-cı il tarixli 485 nömrəli Fərmanla insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması və narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir.

Bu strateji kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib və onun müvafiq sərəncamına əsasən bu sahədə qətiyyətli mübarizənin təmin edilməsi məqsədi ilə «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı» təsdiq edilmişdir.

1999-cu ildə "Narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. 2005-ci ildə görülən işlərin məntiqi davamı kimi beynəlxalq qurumların tövsiyələrinə və qoşulduğumuz konvensiyaların müddəalarına uyğun olaraq Milli Məclisdə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş və Prezident İlham Əliyevin 28 iyun 2005-ci il tarixli Fərmanı ilə təsdiq olunmuşdur. Qanun narkotiklərlə mübarizə istiqamətində müvafiq dövlət və ictimai qurumlar qarşısında konkret vəzifələr qoymuş və bu istiqamətdə fəaliyyətin hüquqi bazasını təşkil etmişdir.

Qanunun başlıca əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanda narkotik vasitələrin və psixotrop maddələrin alınması, saxlanması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, istifadə edilməsi, onların dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, dərman preparatlarının və xammalın hazırlanması qanunla qadağan edilmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-241-ci maddələri məhz narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə aid edilmişdir. Bu cinayətlərin bilavasitə obyekti əhalinin sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlərdir.

Həmin məcəllənin 234.2-ci maddəsi ilə satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma-üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanununun 1.0.10-cu maddəsində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz saxlanması anlayışının şərhi verilmişdir. Həmin maddənin mənasına görə narkotik vasitələri və psixotrop maddələri saxlama, bu maddələrin saxlanılmasının yerindən və müddətindən asılı olmayaraq, onlara qanunsuz surətdə faktiki malik olma deməkdir. Təqsirli şəxsin narkotik vasitələri öz ixtiyarında (məsələn, üstündə, gizli saxlanc yerlərində, binalarda və s.) saxlaması ilə əlaqədar olan hər hansı qəsdən edilən hərəkətləri saxlama kimi başa düşülməlidir. Narkotik vasitələri və ya psixotrop maddələri qanunsuz olaraq başqa şəxsdən əmanət kimi saxlamaq üçün qəbul etmiş şəxs də bu maddələri saxlamağa görə məsuliyyət daşımalıdır.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz daşınması və ya göndərilməsi anlayışı sözügedən qanunun 1.0.8-ci maddəsində şərh edilmişdir. Qanunun mənasına görə narkotik vasitənin, psixotrop maddənin və prekursorların şəxsin özündə nəqliyyat vasitələri ilə və ya belə vasitələrdən istifadə etməklə yerinin dəyişdirilməsi onların daşınması kimi, belə maddələrin poçtla, baqajla, həmin maddələrdən xəbəri olmayan şəxsin vasitəsi ilə bu maddələrin yerinin dəyişdirilməsi onların göndərilməsi kimi qiymətləndirilməlidir. Bu cinayətin subyekti təkcə narkotik vasitələrin və psixotrop maddələrin sahibi və ya onları müvəqqəti saxlayan şəxs deyil, həm də digər şəxslər ola bilərlər.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz olaraq Azərbaycan Respublikasının gömrük sərhədlərindən daşınmaqla və ya göndərməklə keçirilməsinin həm də qaçaqmalçılıq cinayətinin tərkibini yaratdığı müəyyən edildikdə, təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında, yəni həm narkotik vasitələri və psixotrop maddələri qanunsuz daşımağa və ya göndərməyə görə və həm də qaçaqmalçılığa görə tövsif olunur.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz satılması anlayışına qyed edilən qanunun 1.0.11-ci maddəsində şərh verilmişdir. Həmin Qanunda şəxsi maraq dedikdə şəxsin özünün və ya yaxınlarının maddi xarakterli müəyyən öhdəliklərdən azad olunmasına nail olunması, yaxud qeyri-əmlak xarakterli mənfəət əldə etmə başa düşülür.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinə müvafiq olaraq, narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları könüllü surətdə təhvil verən və ya narkotik vasitələrin, psixotrop maddələrin və ya prekursorların qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayətkar yolla əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir. «Narkotik vasitələrin, güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyul 1997-ci il tarixli 1 nömrəli qərarının 17-ci bəndinə əsasən, narkotik vasitələrin könüllü surətdə təhvil verilməsi dedikdə, həmin vasitələrə istədiyi kimi sərəncam vermək imkanına malik olan şəxsin bu vasitələri hakimiyyət nümayəndəsinə könüllü təhvil verməsi başa düşülür.

Beləliklə, cinayət qanunvericiliyi narkotiklərlə əlaqəli cinayətlər törətmiş, yaxud iştirak etmiş şəxslərin cinayətlərin açılmasında və ya qarşısının alınmasında iştirakı və islah olunması üçün imkanlar yaradır.

**Zamir PAŞAYEV,**
**Qəbələ rayon prokurorunun köməkçisi,**
**II dərəcəli hüquqşünas.**

## Əhalinin sayı açıqlanıb

Ötən il Qəbələ rayonunun əhalisi 1142 nəfər artaraq, 2020-ci il yanvarın 1-i vəziyyətinə 107 min 786 nəfərə çatıb.

Onlardan 36 min 557 nəfəri şəhər və qəsəbə, 71 min 229 nəfəri isə kənd əhalisidir. Əhalinin 54 min 907 nəfərini kişilər, 52 min 879 nəfərini isə qadınlar təşkil edir.

Rayon statistika idarəsindən müxbirimizə bildirilib ki, 2019-cu ildə Ədliyyə Nazirliyinin rayon qeydiyyat şöbəsi tərəfindən 1745 nəfər doğulan körpə və 559 ölüm halı qeydə alınıb. Əhalinin təbii artımı 1186 nəfər olub. İl ərzində rayon qeydiyyat şöbəsində 756 nikah və 133 boşanma halı rəsmiləşdirilib.

**"Qəbələ"**

## Kibertəhlükəsizlik mərkəzi yaranacaq

"Microsoft" kibertəhlükəsizlik mərkəzi yaradacaq. Şirkət yeni mərkəzi üçün məkan olaraq Şimali İrlandiyanın paytaxtı Belfastı seçib. Mütəxəssislər qeyd edirlər ki, 2030-cu ilə qədər Şimali İrlandiya bu sahədə 5000-ə qədər əməkdaşın çalışdığı kibertəhlükəsizliyin qlobal mərkəzi kimi tanınacaq.

"Microsoft" şirkəti bildirir ki, "Microsoft" Avropa, Orta Şərq və Afrikadakı ən böyük korporativ müştərilərinə dəstək verəcək.

*Ölkə mətbuatının səhifələrindən*

# Əsrlərin yadigarları "Əfsanələr paytaxtı"nda

## Üç minillik tarixi bugünədək saxlamış 14 mindən artıq mədəni, etnoqrafik eksponat Qəbələ Tarix-Diyarşünaslıq Muzeyinin fondunda qorunur

*Xarici və ölkə mətbuatında müntəzəm olaraq rayonumuzun tarixi, bu günün turizm potensialı, gözəl təbiəti, sosial-iqtisadi inkişaf səviyyəsi, mədəniyyəti, burada keçirilən beynəlxalq və ölkə miqyaslı tədbirlər haqqında yazılar verilir. Redaksiyamız həmin yazıları imkan daxilində öz oxucularına təqdim edir.*

*"Azərbaycan" qəzetinin 5 fevral 2020-ci il tarixli nömrəsində Əsrlərin yadigarı "Əfsanələr paytaxtı"nda adlı yazı çap olunmuşdur. Məhəmməd Nərimanoğlunun müəllifi olduğu yazıda Qəbələ Tarix-Diyarşünaslıq Muzeyindən bəhs olunur. Oxucularımıza maraqlı olacağını nəzərə alaraq həmin yazını dərc edirik.*

***XX əsrin 30-cu illərindən etibarən bir-birinin ardınca mahiyyətinə görə müxtəlif təmayüllü–dövlət, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq, teatr muzeyləri yaradılıb. Lakin muzeylərin əlavə status almaları və yenilərinin yaradılması prosesi də dayanmayıb. Sonrakı illərdə Azərbaycanda yeni muzeylər fəaliyyət göstərib. Tarix-diyarşünaslıq muzeyləri isə xüsusilə böyük əhəmiyyət kəsb edib.***

Muzey işinin günün tələbləri səviyyəsində qurulması, ekspozisiyalarının zənginləşməsi, yeni texnologiyaların tətbiqi daim diqqət mərkəzindədir. Prezident İlham Əliyev tərəfindən 2006-cı ildə Mədəniyyət Nazirliyi qarşısında qoyulan vəzifələrdən biri də şəhər və rayonlarda tarix-diyarşünaslıq muzeyləri şəbəkəsinin genişləndirilməsi ilə bağlıdır. Prezidentin ölkədə muzey işinin yaxşılaşdırılması haqqında 2007-ci və 2009-cu illərdə imzaladığı sərəncamların icrası ilə bağlı bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilib. Hazırda Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən belə muzeylərin sayı 220-yə yaxındır. Onların 71-i tarix-diyarşünaslıq muzeyidir.





1980-ci ildən fəaliyyət göstərən Qəbələ Tarix-Diyarşünaslıq Muzeyi haqqında xüsusi söz açmağımızın isə səbəbi az deyil. Belə ki, bu qədim diyarın tarixini ziyarətə gələnlərə nümayiş etdirən muzey qiymətli eksponatlarla zəngindir. Xatırladaq ki, bu muzeyin yaradılması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Əvvəllər müxtəlif ünvanlarda fəaliyyət göstərmiş muzeyin üzünə 2004-cü ildə gün doğub. Yeni binaya köçməklə muzeyin əməkdaşlarının xalqa xidmət mədəniyyəti də xeyli yüksəlib. Muzeyin həyəti də sanki ekspozisiyaya və açıq səma altında muzeyə çevrilib. Burada yüzədək daş abidə Qəbələnin tarixi yaddaşı kimi ziyarətçiləri qarşılayır və bu, ulu insan məskənindən, xüsusən də Qafqazın ilk alban dövlətindən soraq verir. Burada 14 mindən artıq tarixi, mədəni, etnoqrafik eksponat var ki, bu da muzeyin fondunu və ekspozisiyasını bəzəyir. 3 minillik tarixi özündə qoruyub saxlayan eksponatlar muzeyə yerli əhali tərəfindən təmənnasız bağışlanılıb. Tarixən Qafqazın ilk dövlətinin paytaxtı olmuş Qəbələ bu gün öz inkişafına görə mədəniyyət paytaxtı kimi də tanınır və UNESKO-nun qərarı ilə paytaxt şəhərlər siyahısında özünə yer alıb.

Qəbələnin "Əfsanələr paytaxtı" seçilməsi heç də təsadüfi deyil. "Əfsanələr paytaxtı"nda il ərzində keçirilən mədəni-kütləvi tədbirlərdən biri də burada fəaliyyət göstərən xalq teatrında İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" əsəri əsasında hazırlanmış tamaşanın göstərilməsi idi. Qəbələ son illər əcnə-

**(Ardı 7-ci səhifədə).**